# Bəşəriyyətə qarşı törədilmiş ağır cinayət – Xocalı soyqırımı

***Ermənilərin etnik təmizləmə məqsədilə amansızlıqla həyata keçirdikləri Xocalı qətliamından 30 il keçsə də, faciəni öz gözləri ilə görən, insanlığa qarşı ağlasığmaz dəhşətləri ürək ağrısı ilə xatırlayan soydaşlarımız indi də o günlərdən danışanda həyəcanlanmaya bilmirlər. 1992-ci il fevralın ikinci yarısından başlayaraq, erməni hərbi birləşmələri tərəfindən tam mühasirəyə götürülmüş Xocalı şəhəri həmin ayın 26-da, bir gecədə yer üzündən silinmiş, sakinləri öldürülmüş, sağ qalanlar isə olmazın işgəncələrə məruz qoyulmuşdur. Aldığımız müsahibələrdə Xocalı faciəsinin müdhiş səhnələri bir daha göz önündə canlanır və onu törədənlərin haqq divanına çəkiləcəklərinə inam ifadə olunur.***


Aydın Əliyev


Elşən Əliyev


Seyfəddin Əliyev

**Aydın Əliyev, Xocalı sakini:**

– Dünya ona görə ədalətsiz dünyadır ki, hələ də Xocalı faciəsini törədənlər layiqli cəzalarını almayıblar. Şəhərin məhvi, yüzlərlə dinc sakinin qətli, sağ qalanların iztirabları, izsiz ötüşməyən ağrı-acıları məlum cinayətkarların yuxularını qarışdırmırmı, onların havadarlarının vicdanını incitmirmi?

Mənim 84 yaşım var, əslən Dərələyəzdənəm. 1959-cu ildə atam ailəmizi ermənilərin ayrı-seçkilik siyasəti səbəbindən oradan çıxarmış, Qarabağa, Xocalıya gətirmişdi. İşə baxın ki, burada da nankor qonşularımızdan zülm, işgəncə görəsi olduq. İndi 30 ildir ki, məcburi köçkün taleyi yaşayırıq.

Soyuq fevral günlərində ermənilər və 366-cı sovet motoatıcı alayının hərbçiləri Xocalını hər tərəfdən mühasirəyə almışdılar. Vəziyyətin son dərəcə kritik olduğunu görərək, fevralın 25-də gecə ikən biz – yüzlərlə sakin Xocalını tərk etmək istədik. Əvvəl üzü Əsgərana tərəf yola düşdük. O səmtdə güclü atışma olduğuna görə Gülablı yoluna tərəf döndük. Altmış santimetr qalınlığında olan qarda, şaxtada, ac-susuz üç gün, min zillətlə canımızı qurtarmağa çalışdıq. Top, güllə səsləri aləmi başına götürmüşdü, göydən sanki od yağırdı. Dörd yaşlı oğlumu mən, iki yaşlı qızımı isə anası belinə şələmişdi. Elə o zaman uşağı tutduğum sol əlimi don vurdu, indi də əməlli-başlı işləmir. Gülablıya az qalmış mühasirəyə düşdük. Atışmada bizim dəstədən dörd nəfər həlak oldu, qarşı tərəfdənsə iki nəfər cəhənnəmə vasil oldu. Amma qeyri-bərabər döyüşdə bizi – 130 nəfərə qədər Xocalı sakinini ermənilər girov götürdülər. Girovlar 3 aylıq körpədən 80 yaşınadək olan qocalar idi. Bizi Gülablının 2 kilometrliyində olan Əsgəranın Dəhraz kəndindəki uzunsov mal pəyəsinə doldurdular. Ora ermənilər yaşayan kənd idi. Bir neçə saat sonra azğın silahlılar gələrək, 15 nəfər igid, cüssəli cavanı seçib apardılar ki, ölən ermənilərin əvəzinə güllələsinlər. Əlimizdən heç nə gəlmirdi. Bir neçə gün sonra oradan canımızı birtəhər qurtara bildik. Ağdama, Bərdəyə yol aldıq.

Xocalı hadisələri zamanı təkcə bizim nəsildən xeyli adam qırıldı. Ağbirçək Zəhra xala, igid Mehdi, adını unutduğum bir Axıska türkü və başqaları erməni vəhşiliyinin qurbanı oldular. Nəslimizdən beş nəfər itkin düşdü, hələ də heç birinin öldüsü-qaldısı bilinmir...

O vaxtdan Sumqayıtda məskunlaşmışıq. Burada hərtərəfli diqqət və qayğı ilə əhatə olunmuşuq. Şəhər rəhbərliyi daim qayğılarımızla maraqlanır, heç vaxt diqqətsiz qalmırıq. Amma yurd həsrətini heç nə ilə ovutmaq olmaz. O unudulmaz yerlərə qayıdacağımız günü səbirsizliklə gözləyirik. Allahdan bir arzum var ki, bizə bu zülmü edənlər mütləq haqqın zavalına gəlsinlər, necə ki, gəlirlər də.

**Elşən Əliyev, "Vətən səsi" qəzetinin baş redaktoru, Əməkdar jurnalist:**

– Mən o zaman "Kommunist" (indiki "Xalq qəzeti") qəzetində çalışırdım. Fevralda Qarabağda qarışıqlıq, atışmalar başlandığına görə ailəmizə baş çəkmək üçün doğma Ağdam rayonuna getmişdim. Ayın 26-da Xocalıda misli görünməyən faciə baş verdi. 600-dən çox sakin – uşaq, cavan, qoca erməni vəhşiliyinin güdazına getdi. Sonrakı günlər ölümün cəngindən qurtarıb Ağdama pənah gətirən Xocalı sakinlərini qarşılayanların arasında idim. Ağdam Cümə məscidi zavallıların ilk sığınacaq yeri oldu. Camaat hər vasitə ilə onları ovutmağa, dəhşətin şokundan çıxarmağa çalışırdı. Sonra Xocalıda qətlə yetirilən soydaşlarımızın Ağdam qəbiristanlığında dəfn mərasimlərini keçirdik. Soyuq qılınc kimi kəsirdi, adamın gözündə yaş donurdu. Onları yenicə torpağa tapşırmışdıq ki, ermənilər Ağdamı intensiv "Qrad" atəşinə tutdular. Aləm dəydi bir-birinə...

Mən doğma yurda o səfərimdə, bax, belə ağrılı, unudulmaz anlar yaşamışam. O zaman həmin hadisələrin təsiri altında həyəcan dolu məqalələr də yazmışdım. İndi, Allaha şükür edirəm ki, 44 günlük Vətən müharibəsində şəhidlərimizin, o cümlədən, Xocalı qurbanlarının qisasını döyüş meydanlarında ala bilmişik. Möhtərəm Prezidentimiz, müzəffər Ali Baş Komandanımız İlham Əliyev çıxışlarında bunu xüsusi vurğulayıb. Amma mənfur ermənilərdən fərqli olaraq, biz dinc əhaliyə dəyməmişik, yalnız işğalçı silahlı quldurları, terrorçuları, muzdluları məhv etmişik.

Təsadüfdürmü, ya zərurət, bilmirəm, amma mən sizinlə telefonla danışdığım bu anlarda yenə də Ağdamdayam. Ermənilərin Qafqazın Xirosimasına döndərdikləri, amma artıq azadlığına qovuşmuş Ağdamda. Buradakı Şəhidlər xiyabanında 30 il əvvəl dəfn olunmuş Xocalı şəhidlərini də bir qədər öncə ziyarət eləmişəm. Allah bütün şəhidlərimizə rəhmət eləsin. İnşallah, tezliklə Qarabağa "Böyük Qayıdış" başlayar, həsrətlilər hamısı doğma ata-baba ocaqlarına dönərlər.

**Seyfəddin Əliyev, politoloq:**

– Ermənilərin Xocalıda təkcə biz azərbaycanlılara deyil, bütün bəşəriyyətə qarşı yönəlmiş həmin dəhşətli cinayət əməlləri nəticəsində 613 nəfər dinc azərbaycanlı vəhşicəsinə qətlə yetirilib, onlardan 63-ü uşaq, 106-sı qadın, 70-i qoca olub. Nəticədə 8 ailə tamamilə məhv edilib, 25 uşaq hər iki valideynini, 130 uşaq valideynlərindən birini itirib. Bundan başqa, 487 dinc sakin ağır yaralanıb, 1275 nəfər girov götürülüb. Girovlardan 150 nəfərin, o cümlədən, 68 qadının və 26 uşağın taleyi naməlumdur. Xocalı qətliamına haqlı olaraq "Əsrin faciəsi" deyilir.



Bu faciə ötən əsrdə dünyada baş vermiş insan qırğınlarının ən dəhşətlilərindən biri idi. Bənzər kütləvi qətliamlar Osvensim, Holokost düşərgələrində, Qvatemalada, Burundidə, Ruandada, Şərqi Timorda, Somalidə, Xorvatiyada da baş verib. Bəşəriyyət gərək Xocalı harayını eşidib, lazımi qiymətini verə ki, bir daha belə faciələrlə üzləşməyək. Artıq dünyanın 10-dan çox ölkəsi Xocalı soyqırımını rəsmən tanıyır. Bu yöndə təbliğat işlərimiz davam edir. Heydər Əliyev Fondunun xəttilə "Xocalıya ədalət!" kampaniyası çərçivəsində geniş işlər görülür. Ermənistan dövlətinin cəzasız qalmayacağına böyük inam bəslədiyimiz hərbi cinayətləri sənədləşdirilib, video və fotomateriallar beynəlxalq aləmdə geniş auditoriyaya təqdim olunub. Qoy, dünya görsün ki, erməni faşistlər bu qırğını onların hərbi təcavüzü zamanı əzəli yurd yerlərinin müdafiəsinə qalxmış xalqımızı sarsıtmaq, onun mübarizə əzmini qırmaq, dinc əhalini məhv etmək niyyəti ilə törədiblər.

Bu gün Ermənistanda özlərini siyasət azmanı sayan koçaryanlar, sarkisyanlar, əliqanlı ohanyanlar, onları təhrikçi yazıları ilə ruhlandıranlar, İkinci Qarabağ savaşı zamanı Gəncəni, Bərdəni, Tərtəri raket atəşlərinə tutaraq dinc əhalinin ölümünə səbəb olanlar beynəlxalq hüququn bütün vasitələri ilə ciddi cəzalandırılmalıdırlar.

*Hazırladı:*
***Əli NƏCƏFXANLI,***
***"Xalq qəzeti"***